**AZƏRBAYCAN RESPUBLİKASININ**
**RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ**
**DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ**

AZ1003, Bakı şəhəri, Xanlar küçəsi 2B
Telefon: (+99412) 497 44 05; Faks: (+99412) 497 44 06; Elektron poçtu: info@ddla.gov.az

"29" noyabr 2023-cü il — № 3-27-106/2-1009/2023

**Fəaliyyətinə razılıq verilmiş**
**Təsnifat Cəmiyyətlərinə**

Məlumat üçün bildiririk ki, "Dənizdə insan həyatının mühafizəsinə dair" Beynəlxalq Konvensiyanın V/19-1 – ci qaydası ilə tənzimlənən "Gəminin uzaq məsafədən tanınma və izlənməsi" sisteminin tətbiq olunduğu gəmilərə sözügedən sistemin işləkliyinin müəyyən edilməsi məqsədi ilə müvafiq sınaq siqnalları göndərilmişdir.

Bildirmək istərdik ki, bir sıra gəmilərdən sınaq siqnallarının qəbul edilməsi barədə cavab bildirişləri gəlməmiş və bununla da həmin gəmilərin "Gəminin uzaq məsafədən tanınma və izlənməsi" sisteminin işlək vəziyyətdə olmadığı müəyyən edilmişdir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq bildiririk ki, Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən və rəhbərlik etdiyiniz Təsnifat Cəmiyyətinin nəzarəti altında fəaliyyət göstərən gəmilərə "Gəminin radio avadanlıqlar üzrə təhlükəsizlik Şəhadətnaməsi"nin təqdim olunması üçün nəzərdə tutulan yoxlama zamanı radio avadanlıqlara görə üzmə rayonlarının müəyyənləşdirilməsi həyata keçirilərkən "Gəminin uzaq məsafədən tanınma və izlənməsi" sisteminin tələblərinin nəzərə alınması tapşırılır.

Yuxarıda qeyd olunanlar və Dövlət Dəniz və Liman Agentliyi ilə Təsnifat Cəmiyyətləri arasında imzalanmış "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilər üçün qanunla müəyyən edilmiş sertifikatlaşdırılma və xidmətlərin həyata keçirilməsi haqqında" sazişlərdə nəzərdə tutulan tələblər ödənilmədikdə Agentlik tərəfindən yerli və beynəlxalq qanunvericiliyə uyğun olaraq tədbirlərin həyata keçirilməsi təmin olunacaqdır.

**İdarə Heyətinin sədri**
**vəzifəsini müvəqqəti icra edən** — **Əfqan Cəlilov**